შეფასებისა და გამოცდების ეროვნული ცენტრი



# Musiqi üzrə test

## Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.

Test iki hissədən ibarətdir: I Dinləmə hissəsi; II Dinlənilən materialdan kənar təqdim olunmuş qapalı və açıq tapşırıqlar.

Dinləmə hissəsi üçün müəyyən vaxt ayrılmışdır. Testin elektron bukletində hər tapşırığın müvafiq təlimatında tapşırığa əməl etmək üçün konkret vaxt göstərilmişdir.

Testin II hissəsinin tapşırıqlarında qalan vaxtı istədiyiniz kimi bölüşdürün.

Testin maksimal xalı – 70-dır.

Testə əməl etmək üçün 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

Dinləyişin I hissəsi

Dinləyişin hissəsi on tapşırığı birləşdirir.

1-6-cı tapşırıqlar.

Təlimat: Musiqi fraqmentlərini dinləyin və müvafiq suallara cavab verin. İlk altı tapşırıqda hər bir tapşırığa bir musiqi fraqmenti və iki sual daxildir. Hər sualı ehtimal olunan dörd cavab müşayiət edir. Bir düzgün cavabı seçin və cavablar vərəqində X-lə işarə edin.

Hər bir musiqi fraqmentini iki dəfə dinləyin. Birinci və ikinci dinləyiş arasında fasilə 20 saniyədir.

Hər bir tapşırığa daxil olan musiqi fraqmenti dinlənilənədək tapşırığın suallarını oxumağınız üçün sizə 10 saniyə vaxt verilir.

(Tapşırıqlar sonrakı səhifədə verilib.)

**Tapşırıq 1.** (2 xal)

**Birinci musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (1.1 və 1.2):**

**1.1 Hansı guşənin mahnısıdır?**

ა) Kartli;

ბ) Svaneti;

გ) Acarıstan;

დ) Sameqrelo.

**1.2 Mahnı hansı janrdadır?**

ა) Ritual;

ბ) Əmək;

გ) Süfrə;

დ) Laşkruli (Hərbi Marş).

**Tapşırıq 2.** (2 xal)

**İkinci musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (2.1 və 2.2):**

**2.1 Musiqinin müəllifi kimdir?**

ა) Qoqi Tsabadze;

ბ) Revaz Lağidze;

გ) Bidzina Kvernadze;

დ) Sulxan Tsintsadze.

**2.2 Mahnı hansı kinofilmdəndir?**

ა) „Dağda görüş“; („Şexvedra Mtaşi“)

ბ) „Dəcəl“; („Abezara“)

გ) „Badam çiçəklənəndə“; („Rotsa ağvavda nuşi“)

დ) „Qeyri-adi bir sərgi“. („Araçveulebrivi Qamopena“)

**Tapşırıq 3.** (2 xal)

**Üçüncü musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (3.1 və 3.2):**

**3.1 Musiqinin müəllifi kimdir?**

ა) Ferens List;

ბ) Robert Şuman;

გ) Karl Veber;

დ) Frederik Şopen.

**3.2 Əsərin əsasını hansı rəqs qoymuşdur?**

ა) Mazurka;

ბ) Vals;

გ) Habanera;

დ) Tarantella.

**Tapşırıq 4.** (2 xal)

**Dördüncü musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (4.1 və 4.2):**

**4.1 Hansı personajın partiyası səslənir?**

ა) Aidanın;

ბ) Cildanın;

გ) Violettanın;

დ) Ananın.

**4.2 Hansı janrın solo opera nömrəsidir?**

ა) Romans;

ბ) Ariozo;

გ) Ariya;

დ) Ballada.

**Tapşırıq 5.** (2 xal)

**Beşinci musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (5.1 və 5.2):**

**5.1 Hansı dövrün əsəridir?**

ა) Renesansın;

ბ) XIX  əsrın;

გ) Barokkonun;

დ) XX əsrın.

**5.2 Musiqinin müəllifi kimdir?**

ა) Adolf Adan;

ბ) Sergey Prokofyev;

გ) Pyotr Çaykovski;

დ) Ludviq Minkus.

**Tapşırıq 6.** (2 xal)

**Altıncı musiqili fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (6.1 və 6.2):**

**6.1 Musiqinin müəllifi kimdir?**

ა) Sulxan Tsintsadze;

ბ) Qia Kançeli;

გ) Nodar Qabunia;

დ) Bidzina Kvernadze.

**6.2 Hansı instrument solo partiyanı ifa edir?**

ა) Klarnet;

ბ) Violonçel;

გ) Valtorn;

დ) Alt.

**Tapşırıq 7.** (1 xal)

<u>Təlimat.</u> Musiqi fraqmentini dinləyin; Not yazısında verilmiş dörd variantdan dinlədiyiniz ladı müvafiq variantını  seçin və cavablar vərəqində düzgün cavabı X işarəsi ilə qeyd edin.

ladı iki dəfə dinləyirsiniz.

Not yazısına nəzər salmaq üçün dinləyişdən əvvəl sizə 5 saniyə vaxt verilir:



**Tapşırıq 8.** (1 xal)

<u>Təlimat.</u> Musiqi fraqmentini dinləyin; not yazısında verilmiş dörd variantdan dinlədiyiniz ritmik fiqurasiyanın müvafiq variantını seçin və cavablar vərəqində düzgün cavabı X işarəsi ilə qeyd edin.

Ritmik fiqurasiyanı iki dəfə dinləyirsiniz.

Not yazısına nəzər salmaq üçün dinləyişdən əvvəl sizə 5 saniyə vaxt verilir:

ა) 

ბ) 

გ) 

დ) 

**Tapşırıq 9.** (5 xal)

*Musiqi imlası*

Təlimat. Melodiyanı dinləyin və not sistemində yazın. Melodiya birsəsli, səkkiztaktlı və birtonallıdır. Dinləmək və yazmaq üçün sizə 15 dəqiqə vaxt verilir. Melodiyanı audioyazıda dörd dəfə dinləyin; Hər sonrakı dinləyiş arasında 2 dəqiqə interval var.

İmla tonallıqla verilmişdir: Do major (C dur).

Yazılmış melodiyanı cavablar vərəqəsindəki verilmiş not sisteminə keçirin.

**Tapşırıq 10.** (13 xal)

*Musiqi əsərinin təhlili*

**<u>Təlimat.</u> Musiqi əsərinə qulaq asın və verilən məsələlər üzrə audio ve not yazıları əsasında təhlil edin.**

**Əsəri üç dəfə dinləyəcəksiniz; Hər sonrakı dinləyiş arasında 2 dəqiqə interval var. Yazını dinləməzdən əvvəl tapşırığın suallarını nəzərdən keçirmək üçün sizə 30 saniyə vaxt verilir.**

(Suallar sonrakı iki səhifədə verilib.)

1. Verilmiş əsər hansı vokal janra aiddir? Fikrinizi əsaslandırın. (2 xal)

2. Müəyyən edin:

ა) Əsərin musiqi forması; (1 xal)

ბ) Əsərın tonallığı; (1 xal)

გ) Əsərin sonunda 75-ci taktdan başlanılmış, verilmiş kadans dövriyyəsinə daxil olan akkordların harmonik funksiyaları. (1 xal)

3. Əsərin bədii-emosional tərəfinin necə inkişaf etdiyini təsvir edin; Musiqi təsvirinin hansı üsulları - hansı növ melodiya, ritm, temp, tembr, harmoniya, lad-tonallıq, faktura və s. - bu əsərın bədii məzmununu yaratmaq üçün xüsusilə vacib olduğunu təhlil edin və qısaca təsvir edin. (3 xal)

4. Əsərin musiqi xüsusiyyətlərinə əsaslanaraq onun yaranma dövrünü və bəstəkarın kimliyini müəyyənləşdirin. (2 xal)

5. Əsərin tarixi-mədəni kontekstini yazın; Bəstəkarın yaradıcılığını qısaca təsvir edin.Tapşırığın birinci məsələsində dinlədiyiniz əsərin janrını müəyyən etməliydiniz. Bəstəkarın yaradıcılığında bu janrın əhəmiyyətini vurğulayın. (3 xal)

(Musiqi əsərinin not yazısı növbəti səhifələrdə verilmişdir.)

Etwas lebhaft.




10
Eil die lau - ni - sche Fo - rel - le vor - ü - ber - wie ein Pfeil. Ich
15
stand an dem - Ge - sta - de und sah in sü - ßer - Ruh des


19
mun - tern Fisch-leins Ba - de im kla - ren Bäch-lein zu, des


23
mun - tern Fisch-leins - Ba - de im kla - ren Bäch-lein zu.


27
Ein
p
pp
31
fi - scher mit der Ru - te wohl an dem U - fer - stand, und
p


35
sah's mit kal - tem Blu - te, wie sich das - Fisch-lein wand. So
39
lang' dem Was - ser - Hel - le, so dacht ich, nicht-ge - bricht, so


43
fängt er die Fo - rel - le mit sei - ner An - gel nicht, so
47
fängt - er die - Fo - rel - le mit sei - ner An - gel nicht.


51
Doch
p
pp
55
end - lich ward dem Die - be die Zeit zu
cresc.


58
lang.
Er macht das Bäch - lein tük - kish
p
cresc.


61
trü - be, und eh ich es ge-dacht, so zuck - te sei - ne
p


65
Ru - te, das Fisch - lein, das Fisch-lein zap-pelt dran, und
p
69
ich mit re-gem Blu - te sah die Be-trog-ne an, und


73
ich_ mit re - gem - Blu - te sah die Be-tro-gne an.
77
dim.
pp

II Hissə

**11-28-cı tapşırıqlar.** (Hər düzgün cavaba 1 xal verilir.)

Təlimat: Hər tapşırığa dörd ehtimallı cavab verilir. Onlardan yalnız biri düzdür. Seçdiyiniz cavabı cavablar vərəqində aşağıdakı kimi qeyd edin: cavablar vərəqinin müvafiq xanasında –X işarəsini yazın. Elektron buklet başqa heç bir qeydi, şaquli və ya üfüqi xətləri, müxtəlif işarələri qeydə almır. Əgər, cavablar vərəqində qeyd etdiyiniz cavabı yenidən düzəltmək istəyirsinizsə, X-lə qeyd etdiyiniz xananı bütövlüklə rəngləyin və sonra düzgün cavabın yeni variantını yazın (X işarəsini yeni xanada qeyd edin). Rənglədiyiniz cavabın yenidən seçilməsi qeyri-mümkündür.

**Tapşırıq 11.**

**Variasiya forması qurulmuşdur:**

ა) Əsas musiqi melodiyasının təkrarlanmağı (refrenı) digər melodiyalarla (epizodlarla) əvəzolunması üzərinə;

ბ) Bir və ya iki musiqi melodiyasının dəyişdirilmiş təkrarlanması üzərinə;

გ) Bir neçə musiqi melodiyasının ekspozisiyası, işlənilməsi və reprizası üzərinə;

დ) Musiqi formasının birinci və üçüncü hissələrində eyni (və ya biraz dəydirilmiş), ikinci hissədə isə - yeni musiqi material üzərinə.

**Tapşırıq 12.**

**Aşağıda sadalanan qruplardan hansı *<u>düzgün deyil?</u>***

ა) Kişinin musiqi səsidir: kontrtenor, tenor, bariton, bass;

ბ) Taxta üfləməli çalğılar: fleyta, klarnet, qoboy, faqot;

გ) Musiqi-teatral janrlardır: opera, operetta, müzikl, oratoriya;

დ) Klassisizm dövrünün bəstəkarlarıdırlar: Qlyuk, Haydn, Motsart, Bethoven.

**Tapşırıq 13.**

**Sadalananlardan orta əsrlərin musiqi mədəniyyətinə hansı *xas deyil?***

ა) Monodia;

ბ) Qriqoryan xoralı;

გ) Qvido de Aretsonun not sisteması;

დ) Opera janrı.

**Tapşırıq 14.**

**Konçerto qrosso (it. *concerto grosso*) janrı hansı cərəyan zamanı / hansı dövrdə yarandı?**

ა) Barokko;

ბ) Romantizm;

გ) Ekspressionizm;

დ) Intibah.

**Tapşırıq 15.**

**Hektor Berliozun „Fantastik Simfoniyası“- dır:**

ა) İki hissəli romantik simfoniya;

ბ) Klassik dörd hissəli simfonik tsikl;

გ) Proqramlı simfonik tsikl leytmotiv ilə;

დ) Simfoniya solist-vokalçılar və xor ilə.

**Tapşırıq 16.**

**Volfqanq Amadey Motsart ömrünün son on illiyində hansı şəhərdə yaşamışdır?**

ა) Parisdə;

ბ) Salzburqda;

გ) Vyanada;

დ) Praqada.

**Tapşırıq 17.**
**Orkestrin bütün alətləri tərəfindən musiqi əsərinın fraqmentinin eyni zamanda ifası belə adlanır:**

ა) Sforzando;

ბ) Tutti;

გ) Rubato;

დ) Arpeggio.

**Tapşırıq 18.**

**Hansı bəstəkar elektron musiqinin inkişafına töhfə verdi?**

ა) Yanis Ksenakis;

ბ) Sergey Prokofyev;

გ) Karl Orf;

დ) Arnold Şönberq.

**Tapşırıq 19.**

**İlk kəz hansı bəstəkar gürcü peşə musiqisinə Pşav ladını gətirdi?**

ა) Sulxan Nasidze;

ბ) Otar Taktakişvili;

გ) Şalva Mşvelidze;

დ) Andria Balançivadze.

**Tapşırıq 20.**

**Messa hissələrinin düzgün ardıcıllığı hansı siyahıdadır?**

ა) Kyrie, Sanctus, Benedictus; Agnus Dei; Credo; Gloria;

ბ) Gloria; Agnus Dei; Sanctus, Benedictus; Credo; Kyrie;

გ) Credo; Sanctus, Benedictus; Kyrie; Agnus Dei; Gloria;

დ) Kyrie; Gloria; Credo; Sanctus, Benedictus; Agnus Dei.

**Tapşırıq 21.**

**Sadalananlardan çelestanın partiyası ilk kəz hansı baletin musiqisində səsləndi?**

ა) „Petruşka“;

ბ) „Jizel“;

გ) „Şelkunçik“;

დ) „Romeo və Cülyetta“.

**Tapşırıq 22.**

**Yumoristik və ya qrotesk - fantastik xarakterli instrumental pyesaya nə ad verilir?**

ა) Nokturn;

ბ) Pastoral;

გ) Ballada;

დ) Skertso.

**Tapşırıq 23.**

**Jak Offenbaxın operettasından kankanın melodiyası sadalananlardan hansı tsiklində istifade olunubdur?**

ა) Modest Musorqskinin „Sərgidən şəkillər";

ბ) Kamil Sen-Sansın „Heyvanlarin karnavali";

გ) Klod Debüssinin „Uşaq guşəsi";

დ) Pyotr Çaykovskinin „Fəsillər".

**Tapşırıq 24.**

**„Toreadorın Marşı“ hansı operanın fraqmentidir?**

ა) „Loenqrin“;

ბ) „Karmen“;

გ) „Aida“;

დ) „Fiqaronun toyu“.

**Tapşırıq 25.**

**Sadalananlardan hansı polifonik forma *deyildir:***

ა) Kanon;

ბ) Fuqa;

გ) İnvensiya;

დ) Prelüdiya.

**Tapşırıq 26.**

**Simli-yaylı çalğıda simdə barmaqla dartıb ifa etmək üsuluna nə ad verilir?**

ა) Legato;

ბ) Glissando;

გ) Pizzicato;

დ) Arco.

**Tapşırıq 27.**

**Hansı italyan termini musiqi əsərdə tempin sürətlənməsi ifadə edir?**

ა) Accelerando;

ბ) Diminuendo;

გ) Portamento;

დ) Agitato.

**Tapşırıq 28.**

**Bəzi klassik simfoniyanın hissələrindən biri olan rəqsə nə ad verilir?**

ა) Sarabanda;

ბ) Menuet;

გ) Allemanda;

დ) Polonez.

**29 - 32-cu tapşırıqlar.** (Hər tapşırığa 1 xal verilir.)

***Notdan qurma***

**Təlimat. La notundan verilmiş intervalı, üç və dördsəsli akkordları, ladı qurun və cavablar vərəqində verilmiş not sisteminə yazın:**

29. Xalis kvinta;

30. Minor kvartsekstakord;

31. Kiçik major septakord;

32. Harmonik minor.

33 - 35-cü tapşırıqlar.

*Uyğunluğun müəyyən edilməsi*

Təlimat. Tapşırıqda iki sadalanan sütun verilmişdir. Birinci sütunda sadalananları ikincı sütunda sadalananlara uyğunlaşdırın. Soldakı sütunun hər bir göstəricisinə (1, 2, 3) sağdakı sütununun yalnız bir göstəricisi (ა, ბ, გ, დ, ე) uyğundur. Cavablar vərəqində verilmiş cədvəldə hər bir uyğunluğu X işarəsi ilə göstərin.

**Tapşırıq 33.** (Hər düzgün cavaba 1 xal verilir.)

**Fransız yazıçıları və bəstəkarları arasında uyğunluğu tapın, hansılarınki operalarının ədəbi ilk mənbəsı sadalanan yazıçıların əsərləridir:**

1. Aleksandr Düma (oğul)
2. Pyer Bomarşe
3. Prosper Merime

ა) Cakomo Puççini;

ბ) Jorj Bize;

გ) Volfqanq Amadey Motsart;

დ) Cüzeppe Verdi;

ე) Kristof Qlyuk.

**Tapşırıq 34.** (Hər düzgün cavaba 1 xal verilir.)
**Operalar və onların musiqilərinin müəllifləri arasında uyğunluğu tapın:**

| | |
|---|---|
| 1. „Mindia“ | ა) Revaz Lağidze; |
| 2. „Keto və Kote“ | ბ) Zaqaria Paliaşvili; |
| 3. „Lela“ | გ) Dimitri Arakişvili; |
| | დ) Otar Taktakişvili; |
| | ე) Viktor Dolidze. |

**Tapşırıq 35.** (Hər düzgün cavaba 1 xal verilir.)

**Fortepiano əsərləri ilə janrlar arasındakı uyğunluğu tapın:**

| | |
|---|---|
| 1. „Karnaval“ | ა) Süita; |
| 2. „İnqilabi“ | ბ) Konsert; |
| 3. „ Potetik “ | გ) Etüd; |
| | დ) Sonata; |
| | ე) Rapsodiya. |

**36 - 40-ci tapşırıqlar.** (Hər tapşırığa 1 xal verilir.)

*„Düzgündür-səhvdir"*

Təlimat. Verilən müddəanın düzgün yaxud səhv olduğunu müəyyən edin; müddəanı düzgün sayarsınızsa, müvafiq xananı X işarəsi ilə göstərin; Belə hallarda sizdən şərh tələb edilmir; Əgər müddəanı səhv sayarsınızsa, müvafiq xananı X işarəsi ilə göstərin və ayrılmış yerdə düzgün izahı yazın.

Səhv müddəa halında, verilmiş izaha düzgün termini/sözü uyğunlaşdırın və yaxud verilmiş termini/sözü düzgün izah edin.

Nəzərə alın ki, verilmiş izahın müsbət forması mənfi forma ilə və əksinə dəyişdirildikdə cavab qəbul olunmur.

**Tapşırıq 36.**

Modulyasiya musiqidə tempin dəyişməsi deməkdir.

**Tapşırıq 37.**

Sekvensiya musiqili kompozisiyanın üsuludur ve bu zaman musiqili fraza müxtəlif yüksəklikdə olan səsdən təkrarlanır.

**Tapşırıq 38.**

Svan xalq mahnıları burdon bassı ilə xarakterizə olunur.

**Tapşırıq 39.**

Operanın reçitativi vokal formadır, musiqi deklamasiyadır hansıki nitq intonasiyasını və ritmi ifadə edir.

**Tapşırıq 40.**

Orkestr süitası „Su üzərində musiqi“ İohann Sebastyan Baxın instrumental yaradıcılığının nümunəsindən biridir.

**41 - 42-cı tapşırıqlar.** (Hər tapşırığa 1 xal verilir.)

*Xronologiyanın müəyyən edilməsi*

**Təlimat. Siyahını ən köhnədən ən yeniyə doğru xronoloji qaydada düzün. Cavablar cədvəlində xronoloji ardıcıllıq rəqəmlərlə 1-dən 4-də qədər qeyd edilmişdir. Cavablar vərəqində verilmiş cədvəldə seçilmiş rəqəm boyunca əlifbanın müvafiq hərfləri ilə (ა, ბ, გ, დ) düzgün cavabları yazın.**

**Tapşırıq 41.**

**Simfoniyaları onların yaranma zamanına görə xronoloji qaydada düzün:**

ა) „Tamamlanmamış“;

ბ) „Litavraların tremolosu ilə“;

გ) „Qəhrəmanlıq“;

დ) „Yeni dünyadan“.

**Tapşırıq 42.**

**Xronoloji olaraq bəstəkarların siyahısını onların həyatlarına və  fəaliyyət zamanlarına görə düzün:**

ა) Corc Gerşvin;

ბ) Feliks Mendelson;

გ) Antonio Vivaldi;

დ) Yozef Haydn.